


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

23 oktyabr 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 41 (3753)


# Qardaşlıq əlaqələri güclənir

**Azərbaycan–Qazaxıstan əlaqələri bütün istiqamətlərdə dinamik inkişaf edir. Prezident İlham Əliyevin oktyabrın 21-də Qazaxıstana dövlət səfəri bunun növbəti təsdiqi oldu.**



## Münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib

Dövlətlərarası münasibətlərdə əsas meyar siyasi dialoqun səviyyəsidir. Dialoq nə qədər möhkəm olsa, əməkdaşlıq da bir o qədər dərinləşir. Azərbaycan - Qazaxıstan münasibətləri bunun bariz nümunəsidir. Qarşılıqlı etimada əsaslanan siyasi əlaqələr sayəsində münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Prezident İlham Əliyevin Qazaxıstana dövlət səfərindən öncə "Kazinform" agentliyinə verdiyi müsahibə bu münasibətlərin miqyasını göstərir. Dövlət başçısı qeyd edib ki, siyasi dialoq və qarşılıqlı etimad iki ölkə əlaqələrinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafını təmin edir.

Prezidentlərin dostluq münasibətləri və qarşılıqlı səfərləri siyasi dialoqun dərinliyini təsdiqləyir. Son üç ildə İlham Əliyev Qazaxıstana yeddi, Kasım-Jomart Tokayev isə Azərbaycana altı dəfə səfər edib. Bu təmaslar gündəlik məsələlərin operativ həlli və qarşılıqlı fəaliyyətin güclənməsinə xidmət edir.

> *"Münasibətlər tarixi qardaşlığa, ortaq türk kimliyinə və qarşılıqlı etimada əsaslanır"*

İki ölkə arasında Ali Dövlətlərarası Şuranın fəaliyyəti də münasibətlərin institusional əsasda inkişaf etdiyini göstərir. Bakıda keçirilən ilk, Astanadakı ikinci iclasda əməkdaşlığın yeni mərhələsi və gələcək istiqamətləri müzakirə olunub.

Azərbaycan və Qazaxıstan arasında strateji tərəfdaşlığın hüquqi bazası da möhkəmdir. 2004-cü ildə "Dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə", 2005-ci ildə "Müttəfiqlik münasibətləri haqqında Müqavilə", 2022-ci ildə isə əlaqələrin daha da dərinləşdirilməsinə dair yeni Bəyannamə imzalanıb. Prezident İlham Əliyevin sözləri ilə desək, bu münasibətlər "tarixi qardaşlığa, ortaq türk kimliyinə və qarşılıqlı etimada əsaslanır".

Qazaxıstanın Füzulidə Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzinin inşası da dostluğun simvoludur. Bu layihə Qazaxıstanın azad edilmiş ərazilərin bərpasına dəstəyini əks etdirir. Hazırda mərkəzdə yüzə yaxın uşaq təhsil alır.

Azərbaycan və Qazaxıstanın oxşar iqtisadi modeli və nəqliyyat mövqeləri əməkdaşlığı daha da gücləndirir. Prezident İlham Əliyevin vurğuladığı kimi, iqtisadi-ticari əlaqələr dinamik şəkildə genişlənir. 2024-cü ildə əmtəə dövriyyəsi 470 milyon dollar olub, 2025-ci ilin ilk səkkiz ayında bu göstərici 547 milyon dollara çatıb. Bu artım Orta Dəhlizin potensialından səmərəli istifadə ilə bağlıdır.

Hər iki ölkə nəqliyyat-logistika infrastrukturunun modernləşdirilməsinə xüsusi önəm verir. 2024-cü ildə tranzit daşımalar 20 faiz artaraq 3,5 milyon tondan çox təşkil edib. Aktau və Ələt limanlarında infrastrukturun yenilənməsi, dəmir yol sistemlərinin təkmilləşdirilməsi Orta Dəhlizi Avropa ilə Asiyanı birləşdirən əsas marşruta çevirir.

Azərbaycan və Qazaxıstan arasında artan investisiya axını tərəflərin uzunmüddətli strateji maraqlarının göstəricisidir. İqtisadi əməkdaşlıqla yanaşı, enerji, nəqliyyat, mədəniyyət və təhsil sahələrində də birgə təşəbbüslər genişlənir.

Azərbaycan - Qazaxıstan münasibətləri dostluq, qarşılıqlı etimad və strateji tərəfdaşlıq üzərində qurulub. Dövlət başçılarının səfərləri, hüquqi sənədlər və iqtisadi göstəricilər bu əlaqələrin gələcəkdə daha da möhkəmlənəcəyini göstərir. Prezident İlham Əliyevin Qazaxıstana son dövlət səfəri də bu yüksələn xəttin davamı olaraq əməkdaşlığa yeni impuls verdi.

# Zəngəzur dəhlizi xalqları birləşdirir

## Sülhə, ticarətə və yeni əməkdaşlıq imkanlarına qapı açılır

Tarix boyu yollar xalqların taleyini dəyişən strateji arteriyalar olub. İndiki dövrdə də, bir çox ölkələr beynəlxalq dəhlizlərin iştirakçısı olmağa can atır.

Azərbaycan da bu istiqamətdə böyük inkişaf yolu keçib. Ölkəmiz bir çox dəhlizlərin iştirakçısı, eləcə də dəhlizlərin fəaliyyətinə güc qatan mühüm layihələrin təşəbbüskarıdır. Hazırda Azərbaycan üçün Zəngəzur dəhlizi ("Tramp marşrutu") məhz belə bir layihədir.

Dəhliz tam istifadəyə verildikdən sonra Azərbaycan tranzit ölkə kimi statusunu möhkəmləndirəcək. İllik 15 milyon ton yükdaşıma təkcə vergi və rüsum gəlirləri ilə məhdudlaşmır – logistika, xidmət, yanacaq və turizm sektorlarında yeni iş yerləri yaradacaq.

Naxçıvanın uzun illər davam edən iqtisadi təcridi aradan qalxacaq, Culfa və Sədərək bölgələri regional ticarətin mərkəzinə çevriləcək. Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları isə beynəlxalq bazarlara qoşularaq iqtisadi dirçəliş yaşayacaq.

Bununla yanaşı, dəhliz Avropa




və Asiya arasında daşınma marşrutlarını qısaldacaq, alternativ yollar yaradacaq. Bu, yükdaşıma xərclərinin azalmasına, səmərəliliyin isə artmasına şərait yaradacaq.

Prezident İlham Əliyevin Qazaxıstanda qeyd etdiyi kimi, dəhlizin Azərbaycan hissəsində tikinti, quruculuq işləri yaxın dövrdə tamamlanacaq. Dəhlizin önəmi artıq qlobal güclərin də gündəmindədir. ABŞ-ın dəstəyi ilə "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsi təsdiq olunub və Ermənistanın da bu çərçivədə əməkdaşlıq etməsi nəzərdə tutulur. Azərbaycan isə Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləməklə Zəngəzur dəhlizini Avrasiyanın ən mühüm strateji seqmentlərindən birinə çevirir. Zəngəzur dəhlizinin açılması ilə bağlı beynəlxalq arenada maraq getdikcə artır. Avropa İttifaqı dəhlizi Orta Dəhlizin vacib hissəsi kimi qəbul edir və Avropa ilə Asiya arasında ticarət həcminin artacağına diqqət çəkir. 2024-cü ildə Aİ–Çin ticarət dövriyyəsi 731 milyard avro təşkil edib və bu rəqəmin yüksələcəyi gözlənilir. Türkiyə dəhlizi özünün Orta Asiyaya çıxışında əsas strateji xətt kimi görür.

Hazırda Türkiyə ilə Mərkəzi Asiya arasında ticarət dövriyyəsi 12 milyard dolları ötüb. Mərkəzi Asiya ölkələri də layihəyə maraq göstərir, çünki Aİ–Mərkəzi Asiya ticarət dövriyyəsi 2024-cü ildə 54 milyard dollar olub ki, Zəngəzur dəhlizinin fəaliyyətə başlaması bu rəqəmi daha da artıracaq.

Bir sözlə, Zəngəzur dəhlizi sadəcə dəmir və asfalt yolları deyil, həm də sülhün, əməkdaşlığın və inkişafın yoludur.

# Zəngəzur dəhlizi nə zaman açılacaq?

## Dəhlizin istifadəyə veriləcəyi tarix açıqlanıb

Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə mətbuata bəyanatında bildirib ki, ölkəmizdə avtomobil və dəmir yolu əlaqələri gələn ilin ortalarında tamamlanacaq. Dövlət başçısı vurğulayıb ki, digər ölkələrdə də işlər sürətlə getsə, Zəngəzur dəhlizi 2028-ci ilin sonuna qədər istifadəyə verilə bilər.

# Prezidentdən ildönümü paylaşımı

## Zəngilanın azadlığının 5-ci ildönümü qeyd olunub

Prezident İlham Əliyev sosial media hesablarında Zəngilan şəhərinin işğaldan azad edilməsinin 5-ci ildönümü münasibətilə paylaşım edib. Paylaşımda "Zəfər Tariximiz: 20 Oktyabr 2020-ci il Zəngilan" sözləri yer alıb.

# Vatikanla əməkdaşlıq genişlənir

## Birinci vitse-prezident Roma Papası ilə görüşüb

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca səfəri çərçivəsində Roma Papası XIV Leo ilə görüşüb. Görüşdə Heydər Əliyev Fondunun bərpa, mədəni mübadilə və elmi layihələrdəki rolu müzakirə olunub. Papa XIV Leo münasibətlərin inkişafına görə təşəkkür edib, ikinci Katolik Kilsəsinin tikintisinə ayrılan torpağa görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

# Ölkəmizə yeni səfirlər təyin olunub

## Prezident etimadnamələri qəbul edib

Prezident İlham Əliyev Fransa Respublikasının, Misir Ərəb Respublikasının, Niderland Krallığının səfirlərinin və Avropa İttifaqının nümayəndəliyinin rəhbərinin etimadnamələrini qəbul edib. Görüşlərdə əməkdaşlıq məsələləri də müzakirə olunub.

# Fərman və sərəncamlar

*Azərbaycanda statistika sahəsində çalışan işçilər təltif edilib. Bununla bağlı Prezident İlham Əliyev oktyabrın 20-də Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev oktyabrın 17-də Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Sərəncam imzalayıb.*

"Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiya haqqında Əsasnamə" və "Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiyanın tərkibi" təsdiq edilib. Prezident İlham Əliyev bununla bağlı oktyabrın 17-də Fərman imzalayıb.


Kollegiya iclası keçirilib..........................2
Adət deyil, qanun pozuntusudur...........2
Birliyimiz, həmrəyliyimizin Zəfəri........3
Kriminalistlərin zərgər işi.......................4

# Respublika Xəbərləri

### Azərbaycan görüşdə təmsil olunub

Astanada MDB ölkələrinin Daxili İşlər nazirliklərinin rəqəmsallaşma məsələlərinə nəzarət edən nümayəndələrinin görüşü keçirilib. Tədbirdə Azərbaycan, Belarus, Qırğızıstan, Rusiya, Tacikistan, Türkmənistan və Özbəkistandan nümayəndə heyətləri iştirak ediblər. Nümayəndə heyətləri ilə Qazaxıstanın daxili işlər naziri Erjan Sadenov arasında görüş keçirilib.

### Qarabağa getmək istəyənlərin nəzərinə

Daxili İşlər Nazirliyinin yeni "Polis cavab verir" rubrikası çərçivəsində vətəndaşların ən çox ünvanladığı suallardan biri cavablandırılıb. Bildirilib ki, işğaldan azad olunmuş ərazilərə səfər etmək istəyən vətəndaşların "E-Polis" mobil tətbiqi vasitəsilə qeydiyyatdan keçməsi pulsuzdur və heç bir ödəniş tələb olunmur. Şəxsiyyət vəsiqəsi məlumatları və səfər məqsədinə dair zəruri məlumatlar daxil edildikdən sonra məlumatlar yoxlanılır və müraciətlər aidiyyəti üzrə araşdırılıb cavablandırılır.

### Mina qurbanları

2020-ci ildən indiyədək minalardan 400-dən çox azərbaycanlı həlak olub və ya yaralanıb. Bunu Milli Məclisin sədri Sahibə Qafarova İsveçrədə Parlamentlərarası İttifaqın 151-ci Assambleyasında humanitar fəaliyyətin dəstəklənməsi mövzusunda keçirilən müzakirələrdə söyləyib.

### Hərbi əməkdaşlıq müzakirə olunub

Oktyabrın 20-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Səmərqənd şəhərində özbəkistanlı həmkarı general-leytenant Şuhrat Xalmuxamedovla görüşüb. Tərəflər hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərini müzakirə ediblər.

### Şəxsiyyət vəsiqələri yenilənib

Azərbaycan vətəndaşlarına verilən şəxsiyyət vəsiqələri dəyişib. Şəxsiyyət vəsiqəsində göstərilən məlumatlara yaşayış yeri əlavə edilib. Məlumat şəxsiyyət vəsiqəsinin arxa hissəsində yerləşdirilib. Elektron daşıyıcıda (çipdə) əvvəlki variantla müqayisədə yalnız daha zəruri məlumatlar saxlanılıb.

### Qızıl istehsalında rekord

Bu ilin yanvar-sentyabr aylarında 2 349 kiloqram qızıl istehsal olunub. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 34.1 faiz çox olub. Gümüş istehsalı 2 984.3 kq təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 29.3 faiz çoxdur.

### Orta Dəhlizlə daşımalar artır

Azərbaycan dəmir yolları ilə bu ilin yanvar-sentyabr aylarında Şərq-Qərb (Orta Dəhliz) üzrə daşınan yüklərin həcmi 6 faiz artaraq 2 milyon 651 min tona çatıb. Qeyd edək ki, Orta Dəhliz Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Türkiyə vasitəsilə Avropaya uzanan beynəlxalq nəqliyyat marşrutudur.

### Təmiz hava üçün...

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin DYPİ oktyabrın 20-dən noyabrın 20-dək Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə "Təmiz hava" aylığı keçirəcək. Tədbir çərçivəsində atmosferə normadan artıq zərərli maddələr buraxan avtomobillərin sürücüləri qanunla nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb olunacaqlar.

### Yeni istehsal sahəsi yaradılıb

Ağdam Sənaye Parkının rezidentlərin sayı artıb. Bununla da parkın rezidentlərinin sayı 31-ə çatıb.Yeni rezident tərəfindən sənaye parkının ərazisində müxtəlif təyinatlı mebellərin, yumşaq panel və metal aksesuarların istehsalı nəzərdə tutulur.

### İnvestisiya qoyuluşu artıb

Cari ilin yanvar-sentyabr aylarında ölkəmizdə əsas kapitala 13 milyard 48,1 milyon manat məbləğində investisiya yönəldilib. Bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

# Kollegiya iclası keçirilib

## Daxili İşlər Nazirliyində 9 ayın yekunları müzakirə olunub

**Oktyabrın 17-də Daxili İşlər Nazirliyində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin vəziyyətinə", "Təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı sahəsində görülən işlərə", habelə cari ilin 9 ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.**





İclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan məsələlərin əməliyyat-xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, insanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunması baxımından xüsusi əhəmiyyətini vurğulayıb.

Qeyd olunub ki, vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində böyük bir iş həcmi yerinə yetirilib. Respublikanın 55 şəhər və rayonundan olan 6.279 vətəndaş qəbul edilərək əksəriyyətinin müraciəti yerində həll olunub, həmçinin 80.834 müraciətə baxılaraq təşəbbüskarlara hüquqları izah edilməklə yazılı cavablar verilib.

Cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində həyata keçirilən tədbirlər də bütövlükdə qənaətbəxş olub, əvvəlki dövrlərin müsbət təmayülləri daha da inkişaf etdirilib.

### Cinayətlər innovativ üsullarla açılır

Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış cinayətlərin 92,4 faizi açılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cinayətlərin sayı 6,9 faiz, o cümlədən qəsdən adam öldürmələr, qəsdən sağlamlığa ağır zərər vurmalar, oğurluqlar, dələduzluqlar, soyğunçuluqlar, quldurluqlar, hədə-qorxu ilə tələb etmələr, xuliqanlıqlar, informasiya texnologiyalarından istifadə edilməklə, odlu silahın tətbiqi ilə və əvvəllər məhkum olunmuşlar tərəfindən törədilən, ailə münaqişəsi zəminli və qrup halında cinayətlərin sayı azalıb.

Qeyri-aşkar şəraitdə baş verən, eləcə də ağır və xüsusilə ağır cinayətlərin, şəxsiyyət əleyhinə olanların, onlardan qəsdən adam öldürmə və ona cəhdlərin, qəsdən sağlamlığa ağır zərər vurmaların, mülkiyyət əleyhinə olanların, o cümlədən oğurluqların, dələduzluqların, soyğunçuluqların, quldurluqların, hədə-qorxu ilə tələb etmələrin və avtonəqliyyat vasitəsini qaçırmaların açılması yaxşılaşıb.

Keçmiş illərdən bağlı qalmış 284 cinayətin açılması təmin edilib. Axtarışa elan edilmiş şəxslərin 85,1 faizi tutulub, itkin düşmüş şəxslərin 90 faizi, habelə mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə axtarılan 22.268 borclu şəxs tapılaraq aidiyyəti üzrə təhvil verilib. Ağır və xüsusilə ağır cinayətlər törətmiş 408 nəfərdən ibarət 152 cinayətkar qrup zərərsizləşdirilib. Baş vermiş xırda talama faktlarının 87,7 faizi açılıb.

Qanunsuz dövriyyədən 4 ton 663 kiloqram, yəni ötən ilin eyni dövrü ilə müqayisədə 582 kiloqram çox narkotik vasitə çıxarılıb.

Yol-nəqliyyat hadisələrinin sayı 126 fakt, qəzalarda ölənlərin sayı 13 nəfər, xəsarət alanların sayı isə 157 nəfər azalıb.

### Xidmət müasir tələblər səviyyəsində təşkil edilir

"Formula-1 Azərbaycan Qran Pri"si, III MDB Oyunları, həmçinin respublika və beynəlxalq əhəmiyyətli digər kütləvi tədbirlərdə asayiş və təhlükəsizlik etibarlı və peşəkarlıqla qorunub.

Diqqətə çatdırıb ki, daxili işlər orqanlarında xidmətin müasir tələblər səviyyəsində təşkili, əməkdaşların peşəkarlığının artırılması, təcrübəli və yüksək ixtisaslı kadr korpusunun formalaşdırılması, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması üzrə zəruri tədbirlər davam etdirilib, gənclərin xidmətə qəbulunun təşviqi və təbliği məqsədilə ali və orta ümumtəhsil müəssisələrində mütəmadi görüşlər keçirilib.

Gündəlikdəki məsələlər barədə Nazirliyin aidiyyəti baş idarələrinin rəisləri həyata keçirilmiş tədbirlər, əldə edilmiş nəticələr, yol verilmiş nöqsanların aradan qaldırılması üzrə görülmüş işlər barədə məruzə edib, eyni zamanda məruzəətrafı çıxışlar dinlənilib.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik Vilayət Eyvazov xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, fəaliyyətin effektivliyinin artırılması ilə bağlı qarşıda duran vəzifələri müəyyən edib.

Əsas vəzifələrdən birinin vətəndaş məmnunluğunun təmin edilməsi və bu mühüm məsələdə polisin hər zaman insanların güvən yeri olduğunu xatırladaraq ərazi orqanlarının rəislərindən vətəndaşların müraciətlərinə bundan sonra da həssaslıqla yanaşılmasını, bütün araşdırmaların keyfiyyətlə aparılaraq qaldırılan məsələlərin qanuni və operativ həlli üçün səylərin gücləndirilməsini və tapşırılmış sahəyə məsuliyyətin daha da artırılmasını tələb edib.

### Təbliğatın gücləndirilməsi əsas tələblərdəndir

Antinarkotik təbliğatın gənclər arasında, təhsil müəssisələrində, mediada və sosial şəbəkələrdə gücləndirilməsinin vacibliyi, xüsusən cinayətkar qruplaşmaların yeni metodlardan - internet informasiya resurslarından istifadə etməklə narkotiklərin satışını həyata keçirmək cəhdlərinin qarşısının alınması üzrə fəaliyyətin səmərəsinin yüksəldilməsi barədə konkret vəzifələri müəyyən edib.

Cinayətkarlıqla mübarizədə, xüsusən informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin açılması və belə hüquqazidd əməllərə yol verən şəxslərin məsuliyyətə cəlb olunması işinin gücləndirilməsinin vacibliyini də diqqətə çatdıraraq bu sahədə təbliğat işinin effektivliyinin artırılmasının, müasir dövrün tələblərinə cavab verən maarifləndirmə materiallarının hazırlanıb ictimaiyyətə çatdırılmasının zəruriliyini nəzərə çatdırıb.

İlin başa çatmasına az müddət qaldığını diqqətə çatdıran general-polkovnik Vilayət Eyvazov əldə edilmiş müsbət nəticələrin davam etdirilməsini, arxayınçılığa yol verilməməsini, şəxsi heyətin peşəkarlığının artırılmasını, icra intizamının daha da yüksəldilməsi, yeni informasiya texnologiyalarının geniş şəkildə tətbiqi üçün bütün qüvvə və imkanların səfərbər olunmasını, əməliyyat işinin səmərəsinin yüksəldilməsini tələb edib, bu istiqamətdə konkret tapşırıq və tövsiyələrini verib.

# Adət deyil, qanun pozuntusudur

## İctimai qınaq erkən nikaha qarşı yönəlməlidir

Bu günlərdə Hacıqabul Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən Meyniman kəndində yetkinlik yaşına çatmayan qızla 23 yaşlı şəxsin planlaşdırılan toy mərasiminin qarşısının alınması erkən nikah məsələsini bir daha gündəmə gətirdi.

Xatırladaq ki, bu hadisə ilə bağlı polisə daxil olan məlumat dərhal araşdırılıb, tədbir görülüb və qanunsuz təşkil olunan toy mərasimi dayandırılıb. Tərəflərin valideynləri polis şöbəsinə dəvət olunaraq onlarla izahedici söhbətlər aparılıb, qanunun tələbləri izah edilib. Faktla bağlı hüquqi məsuliyyət tədbirləri də görülür.

Məlum olduğu kimi, Azərbaycan qanunvericiliyinə əsasən, nikah yaşı həm qadınlar, həm kişilər üçün 18 yaş müəyyən olunub. Bu yaşa çatmamış şəxslərin evləndirilməsi qəti şəkildə qadağandır və belə hallara yol verən şəxslər inzibati və ya cinayət məsuliyyəti daşıyırlar. Ancaq, qanunla cəzalar sərt olsa da, erkən nikah faktlarına hələ də rast gəlinir.

Davamlı maarifləndirmə görüşlərinin keçirilməsinə, tədbirlər, layihələr və sosial aksiyalar təşkil olunmasına baxmayaraq, bəzi bölgələrdə ailələr üçün qız uşağının "tez ərə verilməsi", təəssüf ki, hələ də normal sayılır. Belə görünür, bu, sırf hüquqi yox, eyni zamanda mədəni dəyişiklik tələb edən sosial məsələdir.

Polis əməkdaşları bu gün də yerlərdə keçirdikləri maarifləndirici profilaktik tədbirlərlə erkən nikahların çoxşaxəli fəsadlarına diqqət çəkir, bunun qızların təhsildən uzaq qalmasına, savadsızlıq, iqtisadi asılılıq doğurduğunu, məişət zəminində zorakılıq hallarına səbəb olduğunu izah etməyə çalışırlar. Belə geniş miqyaslı maarifləndirici iş ardıcıl aparılır.

Ancaq etiraf edək ki, erkən nikahların qarşısının alınması üçün polisin bu fəaliyyəti yalnız bir mərhələdir. Ən vacibi ailələrin və cəmiyyətin məsuliyyət hissidir. Hər bir valideyn erkən nikahın artıq bir adət olmaqdan çıxıb, qanun pozuntusuna çevrildiyini, hüquq və insan taleyi məsələsi olduğunu aydın dərk etməlidir.

Hacıqabulda baş vermiş hadisə də sübut edir ki, vətəndaşlar polislə birlikdə hərəkət etdikdə, belə qanunsuz halların qarşısı vaxtında alınır. Amma polisin əsas məqsədi hadisəni əngəlləmək, buna görə kiməsə cəza vermək yox, bu cür halların ümumiyyətlə baş verməməsinə nail olmaqdır. Bu isə, yalnız məsuliyyətli vətəndaş, daha doğrusu, valideyn olmaqla mümkündür.

*R.Baxşəlioğlu*

# Birliyimizin, həmrəyliyimizin Zəfəri

## Beş il öncə yazılan tarix əsrin hadisəsinə çevrildi

**Vətən müharibəsinin xronologiyası və 30 ilin gözləntisi. 44 rəqəmi ilə bir qərinəyə yaxın işğal illərini üzbəüz qoyanda gözlərimiz önünə gələn mənzərəni rəssam fırçası ilə çəkmək xeyli zaman alar. Ancaq sözlə ifadə etsək görərik ki, illər öncə qarşımızda duran ən çətin suallara cavab tapdıq, daha doğrusu, 20-ci əsrdə düyünə düşən problemin XXI əsrdə öz həllini tapması cəmi 44 gün çəkdi.**

Biganəliyi rənglərin dili ilə ifadə etmək çox çətindir. Bir milyondan çox qaçqın və məcburi köçkünün vətən həsrətinin çadırlara sığışmadığına bu gün bizi qüdrətli dövlət, enerji tərəfdaşı kimi bağrına basanlar şahidlik etsələr də, demək olar ki, onlar bir millətin taleyinin üstündən xətt çəkmişdilər.

Bəli, bunlar hamısı tarixdir, özü də yaxın tarix, çağdaş tarix. Azərbaycan xalqının, ordumuzun, Prezident İlham Əliyevin yazdığı şanlı tarixdən isə beş il keçib. İndi dünyanın hər yerində azad Vətənin azad Qarabağı, azad qarabağlısı fikirlərini həm ucadan deyə bilirik, həm də yazıb altından imzamızı qoyuruq...

Birinci Qarabağ müharibəsindən sonra düşmən köhnə hədəfləri yeni nəsil silahlarla yenidən atəşə tutdu.

Yeri gəlmişkən,Tərtər də həmişə düşmənin gözünün önündə, nişangahında olub. Elə Vətən müharibəsində də hədəfdə idi. Vətən müharibəsinin ilk günlərində, daha doğrusu, sentyabrın 28-də düşmənin Tərtər şəhərini ağır artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində Tərtər şəhəri Heydər Əliyev prospektində yerləşən rayon Məhkəməsinin inzibati binasının yanına düşmüş mərmi qəlpələrindən 1975-ci il təvəllüdlü Əliyev Mehman Sovet oğlu həlak olmuş, həmin vaxt ərazidən keçən təcili tibbi yardım maşınının sürücüsü 1968-ci il təvəllüdlü Əsədov Qənbər Əsgər oğlu və maşında olan hərbi polisin əməkdaşı 1994-cü il təvəllüdlü Hüseynov Fəxrəddin Fərman oğlu, həmçinin ərazidə olan digər Tərtər şəhər sakini 1991-ci il təvəllüdlü İbrahimov Tural Firdovsi oğlu yaralanmışdır. Bununla yanaşı, saat 20 radələrində düşmən tərəfindən atılan mərmilərdən biri Tərtər Rayon Polis Şöbəsinin inzibati binasının həyətinə düşüb. Mərmi qəlpələri inzibati binanın dəhlizlərinə qədər daxil olmuş, insan tələfatı, xəsarət alan olmasa da, binaya ciddi maddi ziyan dəymişdir.

### Hədəf həm də polis idi

**"Birinci Qarabağ müharibəsində olduğu kimi, ikinci Qarabağ müharibəsində də düşmən bizimlə üzbəüz gəlməkdən qorxdu. Düşmənin dinc əhalini atəşə tutmaqla, cəbhədən uzaq ərazilərdə ağır silahlarla dağıntılara yol açmaqla insanlar arasında panika yaratmaq cəhdi isə boşa çıxdı. Ordumuzun ön cəbhədə uğur qazanması arxa cəbhənin təhlükəsizliyinin qarantı oldu. Vətən müharibəsində düşmən tərəfindən Tərtərə 17 mindən çox top-qrad mərmisi, 21 "Smerç" raketi atıldı. Bütün bunlara baxmayaraq Tərtər RPŞ-nin əməkdaşları da sözün əsl mənasında fədakarlıq nümayiş etdirdilər", - deyən birinci Qarabağ müharibəsinin iştirakçısı, Tərtər RPŞ-nin rəisi polis polkovniki Elçin Qasımov hələ də bədənində qəlpə gəzdirən əməkdaşların adını çəkməyi də unutmadı.**

Vətən müharibəsində yaralanan əməkdaşlardan biri də polis serjantı Şəhriyar İsmayıllıdır. O, 13.01.1995-ci ildə Tərtərin Sarıcalı kəndində doğulub. Rövşən Səfərov adına tam orta məktəbi 2012-ci ildə bitirib. 2013-cü ilin yanvarında hərbi xidmətə çağırılıb. DİN Daxili Qoşunların "N" saylı hərbi hissəsində xidmət edib.

Tərxis olunduqdan sonra 2016-cı ildə daxili işlər naziri general-polkovnik cənab Vilayət Eyvazovun Bərdədə vətəndaş qəbulu zamanı sıra baxışında iştirak edib və polisə ictimai dəstəyə qəbul olunub. 2017-ci ildən polis əməkdaşı kimi sıralarımızdadır. Vətən müharibəsinin ilk günlərini həmkarımız belə xatırlayır: "Biz gözümüzü açandan Tərtəri atəş altında görmüşük. Düşmən bu yerlərə, sakinlərimizə dinclik verməyib. Düzdür, həmişə də ordumuz tərəfindən layiqli cavablarını alıblar. Ancaq sentyabrın 27-si bir başqa gün idi.

Bilirdik ki, bu gün bizi Vətənimizin azadlığına qovuşduracaq. Böyükdən-kiçiyə hər birimizdə yüksək əhval-ruhiyyə var idi. Müharibənin olmasına sevinirdik. Düzdür, polis olaraq bizim üzərimizə daha böyük vəzifələr qoyulmuşdu. Biz həm asayişi qoruyur, həm insanlarımızı təhlükəsiz ərazilərə təxliyyə edir, həm də onları sığınacaqlara yerləşdirirdik. Sentyabrın 28-də düşmənin atdığı top mərmisi Yeni Şıxarx qəsəbəsinə-insanların toplaşdığı yerə düşdü. Orada şəhidlərimiz də oldu, yaralılar da. Mən də ayağımdan yara almışdım. Məni və digər yaralıları Bərdəyə apardılar. Yaralılar çox olduğundan Ucar rayon xəstəxanasına yerləşdirdilər. Orada ayağımdan qəlpəni çıxarıb DİN-in hospitalına göndərdilər"...

Deyir ki, Vətən müharibəsində xalqımızın birliyinin bir daha şahidi olub: "Vətəndaşlarımız da polisini, əsgərini tək qoymaq istəmirdilər. Biz onların təhlükəsizliyi üçün narahat idik, onlar da bizim". Vətən müharibəsindən sonra bütün dünyaya göstərdik ki, haqq heç zaman kölgədə qalmır. O gec-tez günəş kimi qaranlıqları aydınladır, cahanı nuruna qərq edir.

*Hafiz Təmirov*
*polis polkovniki*

# DİN çağırış edir

## Qanunsuz saxlanılan odlu silahlar təhlükə mənbəyidir

Polis əməkdaşları tərəfindən aparılan əməliyyat və profilaktik tədbirlər nəticəsində 2025-ci ilin 9 ayı ərzində 4181 ədəd odlu silah aşkar olunaraq götürülüb ki, onların da 1126-sı avtomat silahı, 263-ü tapança, 2792-si isə tüfəng olub.



Qanunsuz saxlanılan odlu silahın ehtiyatsızlıqdan və ya diqqətsizlikdən ağır nəticələrə gətirib çıxarmasının və ya cinayətin alətinə çevrilməsinin mənəvi və hüquqi məsuliyyətini dərindən dərk edən bir çox vətəndaş onları könüllü təhvil verib. Belə ki, 2025-ci ilin 9 ayı ərzində 3536 ədəd odlu silah vətəndaşlar tərəfindən könüllü olaraq təhvil verilib. Keçirilən əməliyyat tədbirlərilə isə 645 silah aşkar olunaraq götürülüb.

Qanunsuz saxlanılan odlu silah təhlükə mənbəyidir, hansısa ictimai təhlükəli əməlin törədilməsində alətə çevrilib, faciəyə səbəb ola bilər. Könüllü olaraq polisə təqdim edilən silaha görə isə vətəndaş məsuliyyətə cəlb edilmir. Buna görə də vətəndaşlara müraciət edərək qanunsuz yollarla əldə etdikləri və ya tapdıqları silah-sursatı könüllü olaraq yaxınlıqdakı polis orqanlarına təhvil vermələrini xahiş və tövsiyə edirik. Bu halda həmin şəxs heç bir cinayət məsuliyyəti daşımayacaq və bununla da həm özünü, həm də ailəsini böyük təhlükədən və qanunla müəyyən olunmuş ağır cinayət məsuliyyətindən xilas etmiş olacaq.

Bu vətəndaşlıq nümunəsində cəmiyyətin hər bir üzvünün dəstəyi önəmlidir.

# Narkotiklərin satışını təşkil edirdi

## Keçmiş məhkum 47 kiloqram marixuana ilə saxlanıldı

Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən növbəti əməliyyat zamanı külli miqdarda narkotik vasitənin Bakı şəhəri və Abşeron rayonunda satışının qarşısı alınıb. Abşeron rayonunda baş tutan tədbir zamanı 39 yaşlı əvvəllər də narkotiklə bağlı cinayət törətdiyi üçün azadlığı məhdudlaşdırılan Nurlan Allahverdiyev saxlanılıb. Ondan 47 kiloqram tərkibinə zərərli maddələr əlavə edilmiş marixuana aşkarlanıb. Araşdırma zamanı N.Allahverdiyevin ölkə ərazisində narkotiklərin satış və qanunsuz dövriyyəsini təşkil etdiyi müəyyən edilib. Faktla bağlı cinayət işi başlanılıb. Saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Polis əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə fasiləsiz davam etdirilir.

# Aktual məsələlər müzakirə olunub

## Ailə-məktəb-polis əməkdaşlığı diqqət mərkəzindədir

Xaçmaz Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayon ərazisində yerləşən ümumtəhsil müəssisələrinin direktorları ilə görüş keçirilib. Rayonun 5 saylı tam orta məktəbində baş tutan görüşdə RPŞ-nin, regional təhsil idarəsinin əməkdaşları və pedaqoji kollektiv iştirak edib. Tədbirdə yeniyetmələrlə iş, şagirdlərin davranış qaydalarına riayət etməsi, dərs prosesindən üzrsüz səbəblərlə yayınması, eləcə də valideynlərin övladlarını təhsildən yayındırması hallarının qarşısının alınması və bu sahədə ailə-məktəb-polis əməkdaşlığının əhəmiyyəti vurğulanıb.

Məktəb ərazilərinə kəsici-deşici alətlərin, qanunla qadağan edilmiş digər əşyaların gətirilməsi, yeniyetmələrin hüquqazidd davranışlardan çəkindirilməsi və bu istiqamətdə polis əməkdaşları ilə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, eləcə də pedaqoji kollektivi narahat edən digər məsələlər müzakirə edilib.

Xaçmaz RPŞ-nin rəisi polis polkovniki Samir Məcidov çıxışında məktəblərin yerləşdiyi inzibati ərazilərdə təhlükəsizlik məsələlərinin prioritet olduğunu vurğulayaraq, təhsil müəssisələrində şübhəli halların müşahidə edildiyi təqdirdə polis orqanlarına dərhal məlumat verilməsinin vacibliyini qeyd edib.

Tədbirdə erkən nikah hallarının qarşısının alınması, eləcə də şagirdlərin internet resurslarından, xüsusilə sosial şəbəkələrdən təhlükəsiz və düzgün istifadə qaydaları barədə də ətraflı məlumat verilib.

Görüşün sonunda səsləndirilən mövzularla bağlı fikir mübadiləsi aparılıb.

# Brokonyerlər tutuldu

## Qanunsuz balıq ovu ilə məşğul olurdular

DİN Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları tərəfindən Xəzər dənizində, xidməti ərazi olan qoruq, milli park və su hövzələrində brakonyerliyə qarşı mübarizə tədbirləri davam etdirilir. İdarə əməkdaşlarının bu istiqamətdə keçirdikləri növbəti tədbir zamanı Suraxanı rayonu Qum adası adlanan ərazidə qanunsuz balıq ovu ilə məşğul olan 48 yaşlı Həşim Göyçayev və əvvəllər məhkum olunmuş 41 yaşlı Natiq İsgəndərov saxlanılıblar. Baxış zamanı onlardan 195 ədəd qanunsuz olaraq ovladıqları balıq, kustar üsulla hazırlanan ov alətləri, xüsusi mühərriklə təchiz edilən qayıq aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

# Nəzəri biliklər möhkəmlənir

## Təcrübəli mütəxəssislər dərslərdə iştirak edirlər

Təcrübəli hüquq-mühafizə orqanı əməkdaşlarının Polis Akademiyasında keçirilən dərslərdə iştirakı yeni tədris ilində də davam etdirilir.

Bu, kursantların nəzəri biliklərini praktik vərdişlərlə möhkəmləndirməyə, həmçinin gələcək peşə fəaliyyətlərinə daha hazırlıqlı şəkildə başlamalarına mühüm töhfə verir.

Belə ki, bu günlərdə müxtəlif fənlər üzrə keçirilən interaktiv dərslərdə qonaq qismində iştirak edən DİN-in Baş İstintaq və Təhqiqat İdarəsinin Analitik iş qrupunun baş təhqiqatçısı polis polkovnik-leytenantı İlkin Əliyev "Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək icraat", DİN-in Baş Təşkilat-İnspeksiya İdarəsi-



nin rəis müavini-Hüquqi təminat idarəsinin rəisi polis polkovniki Adil Əliyev "İdarəetmənin elmi əsasları", Nəsimi RPİ-nin rəisi polis polkovniki Vüqar Ağayev "Şəhər (rayon) polis orqanlarının təyinatı, hüquqi vəziyyəti və işinin təşkili", Milli Azərbaycan Tarixi Muzeyinin böyük elmi işçisi, Xəzər Universitetinin müəllimi, dosent Laçın Mustafayev "Azərbaycan XIII-XV əsrlərdə", DİN-in Baş İstintaq və Təhqiqat İdarəsinin Ağır Cinayətlərin İstintaqı Şöbəsinin rəisi polis polkovniki Elnur Novruzov "Cinayətlərin açılması və ibtidai araşdırma zamanı əməliyyat və istintaq qurumlarının qarşılıqlı əlaqəsi", "Hadisə yerinə baxış və digər təxirəsalınmaz istintaq hərəkətlərinin yerinə yetirilməsində əlaqədar xidmətlərin qarşısında duran vəzifələr və qarşılıqlı fəaliyyətin təşkili", DİN-in Bakı şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsinin baş müstəntiqi polis mayoru Ceyhun Hüseynov "İttiham aktının tərtib edilməsi və cinayət işinin məhkəməyə göndərilməsi" mövzuları üzrə mühazirə dərslərində iştirak ediblər.

Təcrübəli mütəxəssislər tərəfindən keçirilən dərslər zamanı kursantlar real iş təcrübəsi, əməliyyat şəraiti və hüquqi qərarların qəbulu prosesi ilə yaxından tanış olub, eyni zamanda praktiki situasiyaların təhlili üzrə biliklərini artırıblar. Tədris zamanı kursantları maraqlandıran suallar qonaqlar tərəfindən cavablandırılıb.

# Həm dələduz, həm də oğru

## Əməlinə hüquqi qiymət veriləcək

Paytaxtın Səbail rayonunda bir nəfərin mobil telefonu dələduzluq yolu ilə ələ keçirilib. Zərərçəkən polisə müraciət edərək mobil telefonunun aldadılaraq ələ keçirilməsi, daha sonra telefonuda olan banklardan birinə məxsus tətbiqdən 1700 manatının oğurlanmasını bildirib. Səbail RPİ 39-cu Polis Bölməsi əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən paytaxt sakini 29 yaşlı E. Feyzullayev müəyyən olunaraq saxlanılıb. Araşdırmalarla saxlanılan şəxsin bundan əvvəl də bir nəfərin 2050 manatını dələduzluq yolu ilə ələ keçirdiyi məlum olub. Faktlarla bağlı araşdırma aparılır.

# Qəhrəmanlıq da yaşayır, qəhrəmanlar da...

## Vətən müharibəsinin xronologiyasından

*(Əvvəli ötən sayımızda)*

Qələbəmizdən, torpaqlarımızın işğaldan azad olunmasından, daha doğrusu 2020-ci ilin sentyabrından beş il ötsə də yaddaşımızda, ruhumuzda özünə əbədi yer eləyən o hiss hələ də bizi tərk etməyib. O hissə qisas adı da verə bilərik, yurda dönüş istəyi də, bir qərinəyə yaxın illərin qələbə ilə sonlanmış məntiqi sonluğu da demək olar.

Bu gün işğaldan azad olunmuş yurdlara əbədi bir köç başlayıb. Bu köç təhlükəsiz, top-tüfəng səsi gəlməyən, Azərbaycan əsgərinin, Azərbaycan Polisinin gecə-gündüz keşik çəkdiyi torpaqlarda gələcək xoş günlərin, uğurların təməlini qoymaq üçün 30 ildən sonra yola çıxıb. Bu köçlərin, bu qayıdışın bir qarantı var: Azərbaycan dövləti, Azərbaycan xalqı və Dəmir yumruq.

Vətən müharibəsində Qələbəmizə aparan hər günün, hər ayın öz yeri var. Oktyabr ayı da müharibədə mühüm hərbi nailiyyətlərlə yadda qalıb.

**Oktyabrın 15-də** Ermənistan silahlı qüvvələrinin Tərtər şəhər qəbiristanlığa ağır artilleriyadan intensiv atəş açması nəticəsində 4 mülki şəxs həlak olmuş, 4 nəfər isə ağır yaralanmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində "Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Ciraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" başlıqlı paylaşım edib.

**Oktyabrın 16-da** Azərbaycan Silahlı Qüvvələri Xocavənd rayonunun Ağbulaq, Axullu və Xırmancıq kəndlərini işğaldan azad etmişdir. 27 ildən sonra azad edilmiş Cəbrayıl rayonunun Çaxırlı və Mahmudlu sərhəd zastavalarında Dövlət Sərhəd Xidmətinin Qoşunları tərəfindən xidməti-döyüş fəaliyyətinə başlanılıb. Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72







tankı, 1 ədəd BM-21 Qrad YARS, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 Şilka özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 ədəd avtomobil texnikası məhv edilib vəya sıradan çıxarılıb.

Azərbaycan Müdafiə Nazirliyinin saat 20:03 olan məlumatına görə Ermənistanın silahlı qüvvələri Gəncə şəhərini növbəti dəfə atəşə məruz qoyub.

**Oktyabrın 16-dan 17-nə keçən gecə** Gəncənin yaşayış sahələri yenidən iki raket hücumuna məruz qalır. Həmin gün Gəncə şəhərinin atəşə tutulması zamanı 20 ev dağıdılmış, 12 nəfər (o cümlədən 2 uşaq) ölmüş və 40-dan çox dinc sakin yaralanmışdır.

Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi Agentliyinin verdiyi məlumata görə, raketin düşdüyü yerdən tapılan parçalar onun Elbrus əməliyyat-taktiki raket sisteminin ballistik raketlərinin olduğunu göstərir. Dağıntılar altından xəsarət almış 52 nəfər və 13 nəfərin cəsədi çıxarılmışdır.

Prezident İlham Əliyev xalqa müraciətində Füzuli rayonunun Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı, Cuvarlı kəndləri və Füzuli şəhərinin işğaldan tam azad edildiyini açıqlamışdır. Əməliyyatlar nəticəsində Ermənistan ordusunun mühəndis-istehkam rəisi polkovnik Aşot Qazaryan məhv edilmişdir. 16 oktyabr tarixində gün ərzində və 17 oktyabr tarixinə keçən gecə Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında ehtiyatdan çağırılmış 300 nəfərədək hərbi vəzifəli döyüş mövqelərini özbaşına tərk edərək geri çəkilmişdir. Azərbaycan Ordusu tərəfindən sutka ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 8 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları, döyüş sursatı ilə yüklənmiş 10 ədəd yük maşını və 7 ədəd digər avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. 27 sentyabr tarixindən bu günə qədər Ermənistan ordusuna məxsus 234 tank, 49 ədəd piyadanın döyüş maşını, 16 ədəd özüyeriyən artilleriya qurğusu, 190 ədəd müxtəlif çaplı toplar, 2 ədəd "Uraqan" sistemi, 1 ədəd "TOS 1a" odsaçan sursatı, 2 ədəd "Elbrus" əməliyyat-taktiki raket kompeksi, 1 ədəd "Toçka-U", 2 ədəd "S-300" kompleksi, 35 ədəd "Osa" zenit raket kompeksi, 3 ədəd "Tor" zenit-raket kompleksi, 5 ədəd "Kruq" və "Kub" zenit raket kompleksləri, 9 ədəd radioelektron mübarizə sistemləri, 196 ədəd yük avtobili məhv edilmişdir. 36 tank, 24 ədəd piyadanın döyüş maşını, 98 ədəd yük avtomobili isə qənimət kimi ələ keçirilmişdir. Saat 12 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun S-300 zenit-raket kompleksinin məhv edildiyini göstərən videogörüntü yayımlamışdır.

Saat 11:11 radələrində Cəbrayıl rayonu istiqamətində Azərbaycan Ordusu mövqelərinə hava zərbələri endirməyə cəhd edən Ermənistana məxsus 1 ədəd Su-25 təyyarəsi Hava Hücumundan Müdafiə bölmələrinin dəqiq atəşi ilə məhv edilmişdir.

*(Ardı gələn sayımızda)*

# Kriminalistlərin zərgər işi

## Pişik tükləri qatili ifşa etdi

1994-cü ilin payızında, Kanadanın Prins Edvard adasında yaşayan Şirley Duquay adlı üç uşaq anasının qəfil yoxa çıxması xəbəri diqqətləri üzərinə çəkdi. Onu tanıyanlar əvvəllər həyat yoldaşı ilə aralarında tez-tez münaqişənin baş verdiyini polisə desələr də qadının belə səssiz itməsi ailə üzvlərini və yerli icmanı ciddi şəkildə narahat etdi. Bir neçə gündən sonra qadına aid olduğu düşünülən avtomobil tapıldı. Avtomobilin içində və yaxınlığında çoxlu qan izləri, üstündə qan ləkələri olan bir gödəkcə və inanılmaz olsa da ağ tüklər aşkar olundu.

### Şübhəli həyat yoldaşı və qəribə dəlillər

Qadının yoxa çıxdığı ilk gündən hər kəs, elə polis də onun ayrı yaşadığı həyat yoldaşı Duqlas Bimişdən şübhələnirdi. Lakin cinayətin açılması üçün heç bir maddi sübut, aydın dəlil yox idi. Ta ki, detektiv-



lər gödəkcədəki ağ tüklərin izinə düşənə qədər. Bu tüklərin adi olmadığını anlayan istintaqçılar, həmin tüklərin Bimişin evində saxladığı "Snowball" adlı ağ pişiyə aid ola biləcəyindən şübhələnirdilər.

### İnsana aid olmayan DNT

Cinayəti araşdıran müstəntiqlər bu dəfə fərqli addım atdılar. Onlar gödəkcədəki tüklərdən nümunə götürərək, ilk dəfə olaraq pişiyin DNT-sini analiz etdilər. Bu işə Kanadanın məşhur kriminal laboratoriyalarından biri cəlb olundu. Müqayisə üçün Bimişin pişiyindən də qan nümunəsi alındı. Nəticə heyrətamiz idi. Gödəkcədəki tüklərlə pişiyin DNT-si üst-üstə düşürdü. Bu, o demək idi ki, gödəkcənin sahibi Duqlas Bimişdir.

### Məhkəmə və beynəlxalq rezonans

Bu cinayətkarı ifşa etmək üçün çox güclü dəlil idi. Bimiş həbs edildi və məhkəmə qarşısına çıxarıldı. Məhkəmədə təqdim olunan pişik tüklərinin DNT analizi sübut kimi qəbul edildi. Bimiş cinayətdə təqsirli bilinərək uzunmüddətli həbs cəzasına məhkum edildi. Sözügedən hadisə ilk dəfə olaraq heyvan mənşəli, yəni insana aid olmayan DNT-dən istifadə edilməklə açılan cinayət işi kimi tarixə düşdü.

### Elmi inqilab və kriminalistikanın gələcəyi

Şirley Duquay işi kriminalistikanın tarixində dönüş nöqtəsi oldu. Bu cinayət işi həm hüquq-mühafizə orqanlarının istintaq yanaşmasına, həm də elm dünyasına yeni qapılar açdı. Bu hadisə sübut etdi ki, cinayətkarın izlərini yalnız barmaq izi, ayaq izi və ya insan DNT-si ilə deyil, bəzən heyvan mənşəli dəlillərlə də tapmaq mümkündür.

*Aytən Tahirova*
*polis kapitanı*

# Komandamızın uğuru

## Onların sırasında həmkarımız da var

Kişi şahmatçılardan ibarət Azərbaycan millisi Gürcüstanın Batumi şəhərində təşkil olunan komandalararası Avropa



*Rauf Məmmədov*

çempionatında iştirak edib. Yığmamız son turda Serbiya ilə üz-üzə gəlib.

Şəhriyar Məmmədyarov, Rauf Məmmədov, Aydın Süleymanlı, Məhəmməd Muradlı və Eltac Səfərlidən ibarət kollektiv qələbə qazansa, dördüncü çempionluğunu rəsmiləşdirəcəkdi. Ancaq oyun Serbiyanın 3:1 hesablı qələbəsi ilə başa çatıb.

Hesabında 13 xal olan Azərbaycan millisi yekun sıralamada ikinci yeri tutub. Millimizin xal itkisindən yararlanan Ukrayna Avropa çempionu olub. Son turda yığmamıza qalib gələn Serbiya qitə birinciliyinin bürünc medalını qazanıb.

Xatırladaq ki, Azərbaycan millisi 2009, 2013 və 2017-ci illərdə Avropa çempionu olub. Yeri gəlmişkən, komandamızın üzvü Rauf Məmmədov DİN İdman Cəmiyyətinin İdman-təlim şöbəsinin baş inspektoru polis polkovnik-leytenantıdır.

# Məhkəmə nitqi necə olmalıdır?

## Mütəxəssislər bu nitq növünə maraqlı yanaşma sərgiləyiblər

*(Əvvəli ötən sayımızda)*

Məhkəmə ümumbəşəri dəyərləri - şəxsiyyətin həyatı, sağlamlığı, şərəfi, ləyaqəti, sosial-iqtisadi, siyasi və digər hüquqlarını müdafiə edir. Məhkəmə cinayətkarlıqla, digər hüquqpozmalarla mübarizə metodlarının qanuniliyinə sosial nəzarəti həyata keçirir, vətəndaşları özbaşınalıqdan və qanunsuzluqdan müdafiə edir. Eyni zamanda, cinayətkarlıqla effektiv mübarizəni məhkəməsiz təsəvvür etmək qeyri-mümkündür. Məhkəmədə çıxış etməyə hazırlaşan natiq mütləq şəkildə çalışır ki, fikirlərini ən zəruri, dəqiq və ifadəli sözlərdən istifadə etməklə ifadə etsin. Hər bir nitqdə olduğu kimi, məhkəmə nitqinin əsasını sözə diqqətlə yanaşmaq təşkil edir. Dil və üslub üzərində iş nitqə hazırlığın vacib mərhələsi sayılır.

Məhkəmə nitqinin dili bütün funksiyaları yerinə yetirdiyi üçün, ona bütün dil üslubları xarakterikdir. İnsanların yaşayış, qeyri-rəsmi tərəflərinə xidmət edən danışıq üslubu məhkəmə nitqini asan və aydın edir. Elmi və rəsmi-iş üslubları xüsusi elmi terminlər, hüquqi kateqoriya, hazır, standart formullar toplusundan, yəni qanun normalarından istifadə etməyə kömək edir. Bu üslubdan istifadə etmək zəruridir, çünki məhkəmə nitqinə hüquqi təhsili və müəyyən hüquqi savada malik insanlar – hakimlər, prokurorlar, vəkillər, xalq iclasçıları qulaq asır. Məlum olduğu kimi ictimai-siyasi məlumat, təşviqat və təbliğat məhkəmə nitqinə məxsus olan publisistik üslubun məqsədləridir. Bu üslub yüksək emosionallıqla səciyyələnir və natiqdən ifadəli, düzgün nitq tələb edir.

Səmimi məhkəmə nitqini söyləmək üçün ona əsaslı hazırlaşmaq, öz üzərində daimi işləmək, hüquqi və digər bilikləri təkmilləşdirmək, çox mədəni və təhsilli insan olmaq, iş materiallarını, qanunu, məhkəmə təcrübəsini, elmi ədəbiyyatı yaxşı bilmək lazımdır. Eyni zamanda, nitqi planlamaq lazımdır, onunla məşq etməli və özünü emosional cəhətdən çıxışa hazırlamaq lazımdır. Hər nitqin fəaliyyətində ən məsuliyyətli an məhkəmə auditoriyasında böyük hazırlıq işinin nəticələri çıxarılan zaman nitqin söylənilməsidir. Məhz bu nitqin söylənilməsi zamanı natiqin qarşısında duran məqsədlər reallaşır. Buna görə də tam haqla kommunikativ mərhələsinə natiqlik məharətinin kulminasiya mərhələsi deyilir.

Hər natiqlik çıxışının tərkibi və onun mövzusu natiqin ustalığı ilə təyin edilir. Natiqlik çıxışının forması isə dinləyicinin tərkibindən, konkret vəziyyətdən, natiqlik üslubundan asılıdır. O, elə olmalıdır ki, nəinki məhkəmə tərkibi, hətta məhkəmə iclasında bütün iştirak edənlər üçün nitqin məzmunu sadə, aydın və inandırıcı olsun.

*Aynur Səfərli*

*(Ardı gələn sayımızda)*

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik